**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**
**Magistr dissertasiya işlərinin tərtibi qaydaları**

**1.** Magistrlik dissertasiyasının titul vərəqəsinin və mətninin tərtibi göstərilən tələblərə uyğun olmalıdır.

**2**. Magistrlik dissertasiyası kompüterdə **Times New Roman 14** şrifti, **1,5 intervalla** çap edilməli (sağ və yuxarı boş sahə **15 mm**, sol və aşağı boş sahə **20 mm,** səhifələnmə **aşağıda ortada**), əlavələrlə birlikdə həcmi ixtisasa uyğun olaraq müvafiq kafedra tərəfindən müəyyən edilərək tərtib olunub cildlənməlidir.

**3.** Magistrant müdafiə üçün dissertasiyanın qısa məzmununu əks etdirən referat tərtib etməlidir. Referat **1,5 intervalla** yazılmalı, həcmi **2** səhifədən çox olmamalıdır.

**4.** Magistrant kafedranın razılığı ilə dissertasiyanın qısa məzmununu (referatın) xarici dillərdən birində yaza və müdafiə zamanı suallarla həmin xarici dildə cavab verə bilər.

**5.** Magistrlik dissertasiyasının ixtisaslaşdırılmış Şurada müdafiəsi üçün magistrant müdafiəyə ən azı **3 gün** qalmış Şuraya aşağıdakı sənədləri təqdim edir:

- ərizə (dekanın müvafiq dərkənarı ilə);
- elmi rəhbərin rəyi;
- magistrlik dissertasiyası – 1 nüsxə (müdafiədən sonra elmi hissədə saxlanılır);
- referat 1 nüsxə (müdafiədən sonra elmi hissədə saxlanılır);
- rəsmi rəyçinin rəyi;
- magistrantın fərdi iş planının surəti.